## 10. Beynəlxalq iqtisadi təşkilatların dünya iqtisadiyyatında rolu

XIX əsrdən başlayaraq dünya sənayesinin inkşafı ökələrarası sivil inteqrasiya proseslərinə təkan vurmuş və bunanla da beynəlxalq təşkilatların yaranmasını zəruri etmişdir.

1865-ci ildə yaranan **Ümumdünya Teleqraf Ittifaqı** və 1874-cü ildə yaranan **Ümumdünya Poçt Ittifaqı** ilk beynəlxalq təşkilatlar oldular.

Hazırkı dövrdə mindən çox müxtəlif hüquqi statusu olan beynəlxalq təşkilatlar vardır.

### BMT

Birləşmiş Millətlər Təşkilatı (ing. United Nations Organization, UNO) — 1945-ci ildə yaradılmış dövlətlərarası beynəlxalq təşkilatdir.

Hazırda 193 ölkə bu təşkilatın üzvüdür. Vatikan BMT-nin üzvü deyil.

BMT-nin qərargahı Nyu-York şəhərində yerləşir.

BMT-nin əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

BMT İkinnci Dünya Müharibəsindən sonra yaranaraq, öz qarşısında aşağıda sadalanan hədəfləri qoymuşdur:

- Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması
- Millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqiyyə yardım
- İnsan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi

BMT-nin Nizamnaməsi 1945-ci il 26 iyunda San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il 24 oktyabrda qüvvəyə mindi.

BMT-nin əsas orqanları:

- BMT Baş Məclisi
- BMT Təhlükəsizlik Şurası
- İqtisadi və İctimai Şura
- Qəyyumluq Şurası
- Beynəlxalq Məhkəmə
- Katiblik

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Üzv ölkələr BMT-nin Nizamnaməsi əsasında dünya birliyinin üzvləri kimi öz aralarında hüquq və vəzifələrini müvafiq qaydada müəyyənləşdirirlər.

Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmədən başqa, digər qurumlar Nyu-Yorkda, BMT-nin Mərkəzi idarələrində yerləşirlər.

• BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)

• BMT-nin Uşaq Fondu (UNICEF)

• BMT-nin İnkişaf Proqramı (BMTİP)

• BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) kimi inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində fəaliyyətləri həyata keçirən ixtisaslaşmış təşkilatlar.

**BMT-nin ixtisaslaşmış təşkilatları:**

• The United Nations Secretariat Building.jpg
• Beynəlxalq Əmək Təşkilatı (BƏT)
• BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)
• BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı (YUNESKO)
• Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)
• Dünya Bankı (DB)
• Beynəlxalq Valyuta Fondu (BVF)
• Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO)
• Narkotiklər və Cinayətkarlıq üzrə İdarə (UNODC)[3]
• Ümumdünya Poçt İttifaqı (ÜPİ)
• Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ)
• Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT)
• Beynəlxaq Dənizçilik Təşkilatı (BDT)
• Beynəlxalq İntellektual Mülkiyyət Təşkilatı (WIPO)
• Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD)
• Sənaye inkişafı üzrə Birləşmiş Millətlərin Təşkilatı (YUNİDO)
• Qaçqınlar üzrə Ali Komissarlıq (UNHCR)
• Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA)

**BMT-nin məqsədləri:**

• Münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər qəbul etməklə beynəlxalq sülhün və təhlükəsizliyin qoruyub saxlamaq

• Xalqın özünüdərketmə və bərabərlik prinsipinə hörmət etmək əsasında ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirmək

• Beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək

• Bütün insanlara heç bir fərq qoymadan insan azadlığının, insan hüquqlarına hörmət edilməsini təmin etmək

**BMT-nin prinsipləri:**

• Onun bütün üzvlərinin bərabərliyi
• Nizamnamə üzrə qəbul edilən öhdəçiliyi vicdanla yerinə yetirmək
• Beynəlxalq münasibətlərin sülh vasitəsi ilə həll edilməsi
• Beynəlxalq münasibətlərdə bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etmək
• Beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək
• Dövlətlərin daxili işlərinə qarışmamaq
• İnsanların əsas hüquq və azadlıqlarına hörmət etmək
• Xalqların özünüidarə etməsi və bərabər hüquqlu olması
• Əməkdaşlıq və tərksilah

Ümumiyyətlə, hökumətlərarası qlobal təşkilatların yaradılması müharibələri, milli, iqtisadi və bu kimi digər münaqişələri aradan qaldırmaq və sülhü dəstəkləmək məqsədi güdür .

Belə layihələrdən biri hesab edilən «**Millətlər cəmiyyəti**» (1919-cu il) siyasi və beynəlxalq əməkdaşlığa heç bir səmərə verməmişdir.

**Millətlər cəmiyyəti** I Dünya müharibəsindən dərhal sonra yarandı. Əvvəlcə ona 42 ölkə daxil olmuşdu ki, bunlardan 26-sı Avropa dövlətləri idi.

**Millətlər cəmiyyətinin** üzvləri tarix boyu 57 ölkədən çox olmamışdır. Milli hökumətlər hesab edirdi ki, yalnız hansısa ümumdünya təşkilatı sülhü qoruya bilər və insanları Avropada müharibənin təkrar olmasından xilas edə bilər.

**Tarixi arayış**
BMT-nin yaranması yolunda əsas mərhələ 1943-cü ildə Moskvada müttəfiq dövlətlərin konfransı oldu. 30 oktyabr 1943-cü il tarixində SSRİ, ABŞ, Böyük Britaniya və Çin Bəyannamə iqəbul etmişdilər. Bəyannamədə böyük və kiçik olan bütün dövlətlərin sülhsevər və müstəqillik prinsiplərinə əsaslanaraq beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün qısa müddətdə ümumdünya beynəlxalq təşkilatının yaradılması vacibliyi vurğulanmışdır.

BMT-nin yaranmasında digər mühüm bir məqam gələcək təşkilatın əsas prinsipləri ilə fəaliyyət mexanizmi haqqında razılıq əldə edildiyi Dumbarton-Oks (Vaşinqton: 1944-cü il) Konfransı olmuşdur.

1945-ci ilin fevralında Yaltada (Krımda) üç dövlət başçısının (Sovet İttifaqı, Britaniya və ABŞ) iştirakı ilə Dumbarton-Oks-da keçirilən Konfransın təklifləri – sənədlər paketi müzakirə edildi, bir sıra bəndlər əlavə olundu və 1945-ci ilin aprelində ABŞ-da Millətlər təşkilatının konfransını çağırmaq haqqında qərar verildi.

24 oktyabrda BMT-nin Nizamnaməsi Təhlükəsizlik Şurasının daimi üzvləri tərəfindən təsdiq edilərək qüvvəyə minmişdir. Həmin vaxtdan 24 oktyabr beynəlxalq təqvimdə BMT günü adlanır.

**BMT-nin Nizamnaməsi**

BMT-nin Nizamnaməsi bütün dövlətlər üçün məcburi hesab edilən Konstitusiya sənədidir. Nizamnamə dövlətin hərbi, siyasi, iqtisadi, ekoloji, humanitar və digər sənədlərdə müxtəlif əxlaqi kodekslərini təqdim edir.

BMT-nin yarandığı gündən üzvlərinin sayı 1945-ci ildəki 51 ölkədən, 1960-cı ildə 99-a qədər artmışdır, 2001-ci ildə 191-ə çatmışdır.

2002-ci ildə müstəqil ölkələrin sayı Timor Adalarının Indoneziyadan ayrılaraq müstəqil dövlət olmasından sonra 191-dən 192-yə qalxmışdır.

192 müstəqil ölkədən indiyə qədər Vatikan onun üzvü deyil.

Hər üzv ölkədə BMT-nin nümayəndəliyi və ya missiyası vardır.

BMT-nin hər hansı bir məsələni həll etmək spektri çox genişdir. Əgər əvvəllər əsas istiqamət kimi təhlükəsizlik hesab edilirdisə, indi iqtisadi təsir ilkin plan hesab edilir.

**Üzvlük haqqı**

BMT-nin üzvü olan bütün dövlətlər hər il BMT-nin büdcəsinə öz üzvlük haqqını köçürür. Üzvlük haqqının həcmi hər bir ölkənin milli məhsulunun həcmindən asılı olaraq Baş Assambleya tərəfindən müəyyən edilir.

BMT üzv ölkələr üçün yeni üzvlük haqları cədvəlini təsdiq edib. Cədvələ əsasən üzvlük haqlarının miqdarı artıb.

Plana əsasən ən çox üzvlük haqqı BMT-nin ümumi xərclərinin 22 faizi, ən aşağı həddi isə 0,01 faizi həcmində müəyyən edilib.

Amerika Birləşmiş Ştatları 22 faizlik üzvlük haqqını ödəyəcək yeganə ölkə olacaq.

Siyahıda sonrakı yerləri 12,005 faizlə Çin Xalq Respublikası, 8,564 faizlə Yaponiya, 7 faizlə Almaniya və 4,427 faizlə Fransa tutur.

Rusiyanın ödəyəcəyi məbləğ BMT-nin ümumi xərclərinin 2,405 faizini təşkil edəcək.

Qazaxıstan 0,187 faizlə siyahıda ilk onluqdadır.

Azərbaycan BMT büdcəsinin 0,049 faizi qədər üzvlük haqqı ödəyəcək.

Gürcüstan (0,008 faiz) və Ermənistan (0,007 faiz) siyahıda sonuncu yerləri tuturlar.

Beləliklə, Gürcüstan və Ermənistan BMT-nin ən yoxsul ölkələri siyahısında yer alıblar.

Birləşmiş Millətlər Təşkilatının rəsmi dilləri ərəb, ingilis, ispan, rus və çin dilləridir.

**Dünya Bankı**

Dünya Bankı (ing. World Bank)– dünyada qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət edən və maliyyə resurslarının bölgüsünü təmin edən ən böyük donor təşkilatlardan biri.

1 iyul 1944-cü ildə Bretton-Vuds konfransında təsis olunmuşdur. Dünya Bankı heç də klassik mənada bank deyil, ixtisaslaşmış agentlikdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış qurumlarından biridir. BMT tərəfindən yaradılan bu agentliyin hazırda 184 üzvü var.

Üzv ölkələr bu qurumun fəaliyyətinə nəzarət edir. Dünya Bankı inkişaf etməkdə olan ölkələrə çox aşağı faiz dərəcəsi ilə və ya faizsiz uzunmüddətli kreditlər və qrantlar verir. Dünya Bankı Azərbaycan hökuməti ilə də struktur islahatlarının aparılması istiqamətində əməkdaşlıq edir.

**Əsas məqsədi**

Bankın əsas məqsədi kasıb ölkələrə struktur islahatlarının həyata keçirilməsində və yoxsulluğun azaldılmasında yardım göstərməkdir. Ayrı-ayrı ölkələrdə sabit və davamlı inkişafa nail olmaq üçün Dünya Bankı öz maliyyə resurslarından, yüksək ixtisaslı kadrlarından və biliklər bazasından istifadə edir.

Bank yaradılarkən ilkin məqsədi İkinci dünya müharibəsində dağıntılara məruz qalmış ölkələrdə yenidənqurma işlərinin həyata keçirilməsi və maliyyələşdirilməsi olmuşdur.

Bu bankı digər banklardan fərqləndirən bir çox xüsusiyyətlər var. Bu bankda heç bir kəs hesab aça bilməz.

Bu bankın müştəriləri yalnız dövlətlərdir.

Dünya Bankı dünya iqtisadiyyatının və bir çox digər sosial-mədəni sahələrin inkişaf etdirilməsində əvəzsiz rola malikdir. Adından məlum olduğu kimi Dünya Bankı dünyanın əsas mərkəzi bankıdır.

Dünya Bankı dünya ölkərinin bank sektorunu tənzimləyir, yəni o bankları vaxtaşırı məlumatlarla və öz məsləhətləri ilə təmin edir.

Dünya Bankı fəaliyyətinin əsas istiqaməti iqtisadi keçid dövründə olan inkişaf etməkdə olan ölkələrə və yoxsul ölkələrə kreditlər vasitəsilə yardım etmək və yoxsulluğun səviyyəsini azaltmaq, həmçinin üzv dövlətlərin inkişafını təmin etməkdir.

Dünya Bankı ilk kreditini (250 mln doll) Fransaya müharibəsonrası yenidənqurma işləri üçün ayırmışdır.

Dünya Bankının rəsmi adı: «Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı».

**Bretton-Vuds valyuta sistemi**

Bretton Woods sistemi - 1944-cü il iyulun 1-dən 22-dək keçirilmiş Bretton Woods konfransı nəticəsində qurulan beynəlxalq pul münasibətləri və ticarət hesablaşmalarının təşkil edən beynəlxalq sistemidir (ABŞ-ın Nyu Hempşir əyaləti).

Bretton Woods sistemi "qızıl standart" sisteminin əvəzinə gəldi.

Konfrans Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) kimi qurumların əsasını qoydu.

Bretton- Woods valyuta sistemi - 1944-1976-cı illərdə mövcud olan beynəlxalq qarşılıqlı hesablama və valyuta münasibətləri sistemidir. Məhz Bretton-Vuds sistemi dolları beynəlxalq hesablaşmalar və ehtiyatların saxlanması vasitəsinə çevirmişdir.

Bretton-Vuds valyuta sistemiтшт əsas prinsipləri aşağıdakılardır:

• 1 ABŞ dolları 1 troya unsiyasını 35 dollar hesabında dəyişməsi mümkün olan beynəlxalq hesablaşma valyutası kimi qəbul edilir

• Britaniya funt sterlinqi, Alman markası və sairə kimi digər dünya valyutaları dollara bağlanırlar

• Mərkəzi banklar valyuta intervensiyasından istifadə etməklə öz valyutalarının sabit məzənnəsini təmin edirlər

• Ehtiyac olduğu halda iştirakçı ölkələr valyutanı devalvasiya yaxud revalvasiya edə bilərlər

Bretton-Vuds sistemi dünya iqtisadiyyatını İkinci dünya müharibəsindən sonra yeni səviyyəyə çıxarmaq üçün yaradılmışdır. Hesab edilir ki, o öz vəzifəsinin öhdəsindən gəlmişdir.

Lakin sonralar inkişaf edən dünya ticarətində hesablaşmalar üçün nağd qızılla təmin edilmiş ABŞ dollarından daha çox hesablaşma vəsaiti tələb olunur.

Bu səbəbdən 1976-cı ildə valyutanın qiymətli metalla mübadiləsi tamamilə dayandırılır.

**Dünya Bankı Qrupu**

Dünya Bankı Qrupunu dedikdə aşağıdakı qurumlar nəzərdə tutulur:

• Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)

• Beynəlxalq İnkişaf Assosiasiyası (BİA)

• Beynəlxalq Maliyyə Korporasiyası (BMK)

• İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA)

• İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz (İMHBM)

Hal-hazırda Dünya Bankı Qrupu 185 ölkənin üzv olduğu nəhəng iqtisadi təşkilatdır.

Dünya Bankı öz fəaliyyətini inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) əsasən aşağıdakı sahələrə yönəldir:

• İnsani inkişaf (məs. təhsil, sağlamlıq)

• Kənd təsərrüfatı və kəndlərin inkişafı (məs. "irriqasiya" - su olmayan torpaqların süni suvarılması, kəndlərə gostərilən xidmətlər)

• Ətraf mühitin qorunması (məs. çirklənmənin azaldılması)

• İnfrastruktura (məs. yollar, şəhərlərin artması, elektrik təchizatı)

• İdarəetmə (məs. anti-korrupsiya, demokratik institutların inkişaf etdirilməsi)

Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA) isə özəl sektora investisiya daxil edir və bu investisiyaların təminatçısı rolunu oynayır.

Dünya Bankı Qrupu BMT-in ixtisaslaşmış qurumlarından biridir. Təşkilatın baş qərargahı Vaşinqtonda yerləşir.

Ənənəyə uyğun olaraq, Dünya Bankının Prezidenti ən iri səhmdar ölkənin vətəndaşı olmalıdır. Prezident 5 illik müddətə seçilir və ümumi nəzarəti həyata keçirir.